**Hövsanda quş kəsimi və hisə verilməsi müəssisəsində keçirilmiş yoxlamaya dair məlumat**

**(24 noyabr 2023)**

Bakı şəhərinin Suraxanı rayonu, Hövsan qəsəbəsi, Bağça küçəsi, mənzil 75 ünvanında yerləşən, fiziki şəxs Rzayev Əhirman Eynulla oğluna məxsus quş kəsimi və hisə verilməsi müəssisəsində Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən plandankənar yoxlama keçirilib.

Baxış zamanı qida təhlükəsizliyi sahəsində normativ hüquqi aktların, sanitariya norma və qaydalarının tələblərinin pozulduğu müəyyən edilib. Müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi məlum olub, həmçinin müəssisədə texnoloji ardıcıllıq prinsipinə riayət olunmadığı, temperaturun monitorinqi və qeydiyyatının aparılmadığı, müvafiq təmizlik işlərinin görülmədiyi, işçi heyətin tibbi müayinəyə, gigiyenik təlimlərə cəlb edilmədiyi və xüsusi geyimlə təchiz olunmadığı, məhsulların üzərində qanunvericiliyə uyğun markalanmanın aparılmadığı və digər nöqsanlar aşkarlanıb.

Faktla bağlı qanunvericiliyə uyğun olaraq müəssisədə işlərin görülməsi, xidmətlərin göstərilməsi nöqsanlar aradan qaldırılanadək məhdudlaşdırılıb və rəhbərliyi barəsində inzibati protokol tərtib edilib.